# AZƏRBAYCANIN RÜTUBƏTLİ SUBTROPİKLƏRİNİN ŞİMAL HİSSƏSİNİN ÇAYAYARARLI TORPAQLARINDA HUMUS DEFİSİTİ

**Əhədov D.R.**

*AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutu*
*d_ahadli@mail.ru*

Torpaqların münbitliyinin qorunması və artırılması ölkə əhalisinin ərzaqla təmin edilməsində və heyvandarlığın möhkəm yem bazasının yaradılmasında böyük əhəmiyyət kəsb edir. Torpaq münbitliyi problemləri və onun həlli məsələləri Azərbaycan dövlətinin daimi nəzarətində olan mühüm məsələlərdən biridir. Bu barədə 30 dekabr 1999-cu ildə xüsusi olaraq "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Qanunda nəzərdə tutulan məqsədlərə çatmaq üçün ölkə alimlərinin qarşısında böyük vəzifələr qoyulmuşdur. Torpaq münbitliyi məsələləri ilə bağlı AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əməkdaşları bir-neçə mövzu üzrə fundamental elmi-tədqiqat işləri aparırlar.

Rütubətli subtropik bölgənin torpaqlarının tədqiqatını aparmış R.V.Kovalyov, B.İ.Həsənov, D.R.Əhədov. S.Z.Məmmədova, A.H.Vəliyev və digərləri Azərbaycanın rütubətli subtropiklərinin şimal hissəsində çaya və sitrus bitkilərinə yararlı laterit torpaqlardan olan psevdopodzollu dağ-meşə sarı, psevdopodzollu sarı, psevdopodzollu-qleyli sarı, torpaq tipləri və yarımtiplərinin yayıldığını müəyyən etmişlər (cədvəl 1).

Dağ-meşə sarı torpaqlarını beynəlxalq torpaq təsnifatına (World soil classification) görə Alfisols şöbəsinə, psevdopodzollu və psevdopodzollu-qleyli sarı torpaqları Ozisols şöbəsinə aid etmək olar. Torpaq münbitliyinin əsas göstəricisi olan humusun miqdarı subtropiklərin şimal hissəsinin torpaqlarında o qədər də qənaətbəxş deyildir. Psevdopodzollu sarı torpaqlarda humusun miqdarı bu yarımtip üçün 0-20, 0-50, 0-100 sm-lik qatda 0,6-0,99%, psevdopodzollu sarı torpaqlarda 0,19-0,28%. Psevdopodzollu-qleyli sarı torpaqlarda isə 0,03-0,58%-dən aşağıdır ki, bu da bu torpaqlarda humusun defisitini göstərir.

**Cədvəl 1.Rütubətli subtropiklərin şimal hissəsinin çayayararlı torpaqlarında humus miqdarı və defisiti**

| Humus, %-lə / Dərinlik, sm-lə | Psevdopodzollu dağ-meşə sarı | | | Psevdopodzollu sarı | | | Psevdopodzollu-qleyli sarı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Normativ miqdar | Faktiki miqdarı | Defisit | Normativ miqdar | Faktiki miqdarı | defisit | Normativ miqdar | Faktiki miqdarı | defisit |
| 0-20 | 6,0 | 5,01 | 0,99 | 3,5 | 3,22 | 0,28 | 4,0 | 3,42 | 0,58 |
| 0-50 | 3,0 | 2,71 | 0,29 | 2,0 | 2,24 | 0,24 | 2,5 | 2,47 | 0,03 |
| 0-100 | 1,5 | 0,9 | 0,6 | 1,5 | 1,32 | 0,18 | 1,5 | 1,55 | 0,05 |

**Torpaqların üst qatlarında humus ehtiyatını artırmaq üçün aqrotexniki qaydalara əməl edilməli, çay plantasiyalarına və sitrus bağlarına daha çox azot gübrələri verilməlidir.**